**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQRAR SAHƏDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏLƏŞDİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ (Gəncə-Qazax iqtisadi rayonun timsalında)

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Samir Tufan oğlu Əhmədov**

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**GƏNCƏ- 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqiatlar Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü,i.e.d, profesor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru,professor
**Rəsul Ənvər oğlu Balayev**
İqtisad üzrə fəlsəfə doktoru,dosent
**Nüşabə Aslan qızı Hacıyeva**
İqtisad üzrə fəlsəfə doktoru
**Xanlar Bəylər oğlu Heydərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: İqtisad elmləri doktoru, professor,
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİZƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkənin iqtisadi siyasətinin əsasını bazar iqtisadiyyatı qanunlarının təsiri altında, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi yolu ilə, mövcud iqtisadi potensialdan (torpaq, əmək və kapitaldan) səmərəli istifadə etmək, istehlak bazarının tələbatını ödəmək, əhalinin ərzaq təhlükəsizliyini təmin etmək və məşğulluq səviyyəsini yüksəltməklə əhalinin firavan həyat tərzinin formalaşdırılması təşkil edir.

Göstərilən məqsədələrə uyğun olaraq, milli iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsinə üstünlük verilir, regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzində saxlanılır, xarici iqtisadi əlaqələrin səmərəli təşkilinə mühüm əhəmiyyət verilir, məqsədyönlü tədbirlərin, dövlət proqramlarının icrası vasitəsilə mövcud nöqsanların aradan qaldırılması təmin edilir və əlverişli mühitin formalaşdırılmasına nail olunur.

Regionların inkişafı ilə əlaqədar 2004-cü ildən başlanmış siyasətin davamı olaraq qəbul edilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” icra edilmiş və növbəti 2019-2023-cü illər üçün müvafiq tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuş,konkret vəzifələr müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında  kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” hazırlanmış və hədəflər müəyyələşdirilmişdir.

Göstərilən hədəflərə nail olmaq və nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsində sahibkarlıq subyektlərinin müstəsna rolu vardır. Müasir dövrdə iqtisadi münasibətlərin inkişafının daha bir xarakterik xüsusiyyəti iri istehsal subyektlərinin arxa plana keçirilməsi, kiçik və orta sahibkarların(KOS) fəaliyyətini ön plana çəkmək, onların inkişafı üçün hərtərəfli yardım göstərməkdən ibarətdir.

Problemin işlənmə dərəcəsinə gəldikdə isə göstərmək olar ki, kiçik və orta sahibkarlığın fəaliyyətinin tədqiqinə dünyanın iqtisadçı alimləri kifayət qədər geniş diqqət yönəltmişlər. Problemin müxtəlif

aspektlərini A.Smit, J.B.Sey, R.Katiliona, L.F.Mises, F.Hayek, Y. Şumpeter, P.F.Duker,C.M.Keyns və başqaları araşdırmışlar. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məsələləri rusiyalı alimlər N. M.Korşunova, N.İ.Deriaşvili, L. A. Kolesnikova, V.A. Strokov, R. R. Kazıxanov, A.R.Tayupov, V.Q.Basreva, Y.A.Bursev, P.F.Druker, A. L.Kuzevanov və başqaları tərəfindən tədqiq edilmişdir.

Azərbaycan iqtisadçı alimlərindən sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın təşkili və inkişaf etdirilməsinin nəzəri-təcrübi aspektləri Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, E..A.Quliyev, B.X.Ataşov, E.R.İbrahimov, İ.H.İbrahimov, İ.M.Abbasov, H.A.Xəlilov, İ.V.Əhmədov, A.M.Məhərrəmov, İ.H.Alıyev, Ə.Q.Əlirzayev, R.Ə. Balayev, A.H.Vəliyev, V.H.Abbasov, F.F.Fikrətzadə və başqaları tərəfindən araşdırılmış təkliflər irəli sürülmüşdür. Amma ölkəmizdə ayrıca kiçik və orta sahibkarlığın inkişaf məsələləri kompleks şəkildə məhdud çərçivədə tədqiq olunmuşdur.Məlumdur ki, ölkə Prezidenti, cənab İlham Əliyev 2017-ci il dekabrın 28-də "Kiçik və orta sahibkarlıq sistemində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında fərman imzalamışdır. Məsələnin aktuallığından asılı olaraq, Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrə İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin (SECO) yardımı ilə Azərbaycanda kiçik və orta müəssisələrin fəaliyyətinin öyrənilməsi məqsədilə xüsusi tematik sorğu keçirmişdir.Problemin məqsədyönlü həlli üçün ölkənin ayrı-ayrı regionlarının özünəməxsus xüsusiyyətləri araşdırılmalı və inkişaf meylləri nəzərə alınmaqla tamamlamaq çox əhəmiyyətlidir. Bu həm də işğaldan azad edilmiş ərazilərin inkişafı baxımdan vacibdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ölkənin Gəncə-Qazax iqtisadi rayonunun kənd təsərrüfatı məhsulları istehsalçı qurumlarından ibarətdir.

Tədqiqatın predmeti kiçik və orta sahibkarlıqda kənd təsərrüfatı istehsalçılarının maliyyə münasibətlərini təkmilləşdirmək, maliyyə ehtiyatlarının formalaşdırılması və ehtiyatlardan səmərəli istifadənin təmin edilməsi qanunauyğunluqlarının tədqiqindən ibarət olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi sisteminin xüsusiyyətlərini

araşdırmaq, ölkənin iqtisadiyyat kompleksində rolunu müəyyənləşdirmək, coğrafi aspektdə səmərəli fəaliyyət qanunauyğunluqlarını tədqiq etmək və Gəncə-Qazax iqtisadi rayonunda kicik  və orta sahibkarlıq subyektlərinin maliyyə imkanlarını möhkəmləndirməyin səmərəli yollarını müəyyənləşdirməkdən ibarət olmuşdur.

Məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- ölkədə kiçik və orta sahibkarlığın rolunu elmi baxımdan qiymətləndirmək,onun inkişaf etməsinin mövcud vəziyyətini təhlil etmək, onların inkişafının konseptual əsaslarını müəyyənləşdirmək və qanunauyğunluqları tədqiq etmək;
- Gəncə-Qazax iqtisadi rayonun təsərrüfat subyektlərinin timsalında coğrafi prinsiplər və sahibkarlığın formalaşma xüsusiyyətləri nəzərə alınmaqla kənd təsərrüfatında kiçik və orta sahibkarlıq fəaliyyətinin səmərəliliyinin təmin edilməsi istiqamətlərini müəyyənləşdirmək;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlığın inkişaf etdirilməsində maliyyə imkanlarının mövcüd vəziyyətini qiymətləndirmək;
-kiçik və orta sahibkarlığın bazara və maliyyə resurslarına çıxış imkanlarını araşdırmaq;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlığın maliyyə imkanlarının genişləndirilməsi və möhkəmləndirilməsi istiqamətlərini müəyyənləşdirmək, konkret təkliflər hazırlamaq.

**Tədqiqatın metodlarını** milli və xarici ölkələrin iqtisadçı alimlərinin sahibkarlığın, o cümlədən, aqrar sahənin inkişafı və kənd təsərrüfatında maliyyə ehtiyatlarının formalaşdırılması, onlardan səmərəli istifadə olunması, regionların təbii və iqtisadi ehtiyatlarından istifadə, onların səmərəliliyinin artırılması problemlərinə həsr olunmuş elmi əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları, Nazirlər Kabinetinin təsdiq etdiyi qərarlar və digər hüquqi-normativ sənədlər tədqiqatın metodoloji əsasını təşkil etmişdir.

Problemin tədqiqində müşahidə, qruplaşdırma, icmallaşdırma, təhlil (sintez) və digər iqtisadi-statistik üsullardan, metodlardan istifadə olunmuşdur.

Tədqiqat prosesində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Sahibkarlığın İnkişafı Fondunun, Aqrar Tədqiqatlar Mərkəzinin məlumatlarından, ayrı-ayrı alimlərin tədqiqat işlərinin nəticələrindən və internet məlumatlarından istifadə olunmuşdur. Regionların sosial-iqtisadi inkişafı, müvafiq Strateji Yol Xəritələrinə uyğun olaraq həyata keçirilmiş tədbirlərin materialları əsas informasiya mənbəyi kimi istifadə olunmuşdur. Tədqiqatın aparılmasında Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrə İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin (SECO) yardımı ilə Azərbaycanda biznes (sahibkarlıq) mühiti uzrə keçirilmiş sorğunun: "Azərbaycanda Kicik və Orta Müəssisələr üzrə Araşdırma"nın nəticələrindən istifadə olunmuşdur. Rəsmi məlumatların azlığını nəzərə alaraq, Gəncə-Qazax iqtisadi rayonun 24 kənd təsərrüfatı istehsalçılarının fəaliyyət nəticələrini araşdırmaq üçün seçmə qaydada tematik sorğular keçirilmiş, alınmış ilkin məlumatlar sistemləşdirilmiş, qruplaşdırılmış, icmallaşdırılmış və təhlil prosesində istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işinin elmi yeniliklərinə və alınmış nəticələrinə müvafiq bir sıra müddəalar müdafiəyə çıxarılır:

- kiçik və orta sahibkarlığın maliyyələşdirlməsinin nəzəri-metodoloji əsaslarını araşdırmaq və konseptual yanaşmaları ümumiləşdirmək,kiçik və orta sahibkarlığın formalaşma xüsusiyyətlərini müəyyənləşdirmək zərurəti yaranmışdır;
- aqrar sahədə kiçik və orta sahibkarlığın formalaşma və inkişafının mövcud vəziyyətini qiymətləndirməyə ehtiyac vardır;
- aqrar sahədə kiçik və orta sahibkarlığın istehsal resurslarından səmərəli istifadə etməyinə və maliyyə təminatı yaratmağına dair tədbirlər hazırlamaq tələb olunur;
- sahibkarların bazara çıxış imkanlarını genişləndirmək üçün elmi cəhətdən əsaslandırılmış tədbirlərə ehtiyac yaranmışdır;
- kiçik və orta sahibkarlığın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün,səmərəli fəaliyyəti özündə əks etdirən təkliflər hazırlanmışdır;

- aqrar sahədə inteqrasiya və kooperasiya əlaqələrinin inkişafı və maliyyə təminatının yaxşılaşdırılmasının tənzimlənməsi istiqamətində tədbirlər tələb olunur;

- Gəncə-Qazax iqtisadi rayonunun aqrar sahibkarlıq subyektlərinin maliyyə təminatının gücləndirilməsi, ehtiyatlardan səmərəli istifadə edilməsi istiqamətlərini müəyyənləşdirmək üçün müvafiq mexanizmləri özündə əks etdirən təkliflər məcmusuna ehtiyac yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi** aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyələşdiriməsinin nəzəri-metodoloji məsələlərinə və təkmilləşməsinə dair təcrübi əhəmiyyətli təkliflər hazırlamaqdan ibarətdir. Dissertasiyanın elmi yeniliyi aşağıdakılarla səciyyələndirilir:

- tədqiq olunmuş iqtisadi rayonda kiçik və orta sahibkarlığın struktur xüsusiyyətləri və onları şərtləndirən amillər müəyyənləşdirilmişdir;
- kiçik və orta sahibkarlıq subyektərinin resurs təminatının və bazara çıxış imkanlarının genişləndirilməsi, maliyyə resursları ilə təminatının gücləndirilməsinə dair təkliflər hazırlanmışdır;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlığın maliyyə təminatı ilə əlaqədar resurslardan səmərəli istifadə və inkişaf qanunauyğunluqları araşdırılmış və müvafiq təkliflər irəli sürülmüşdür;
- tədqiq olunan regionun kənd təsərrüfatı üçün ilk dəfə SWOT təhlili işlənib hazırlanmışdır və təkliflər sistemləşdirilmişdir;
- aqrar sahibkarlığın maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə kiçik və orta sahibkarlıq subyektlərinin kooperasiya və inteqrasiya əlaqələrinin inkişaf etdirilmə istiqamətləri müəyyənləşdirilmiş və təkliflər verilmişdir;
- tədqiq olunan regionun təbii və iqtisadi ehtiyatlarından səmərəli istifadə və maliyyə təminatının yaxşılaşdırılması istiqamətlərinə dair təkliflər hazırlanmişdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** əsaslandırılmış nəzəri-metodiki müddəalar, irəli sürülən tövsiyə və təkliflər kənd təsərrüfatı istehsalçılarının ehtiyatlarından səmərəli istifadəyə və istehsalın iqtisadi səmərəliliyinin yüksəldil-məsinə, ümumilikdə kənd təsərrüfatının intensiv inkişafına, təsərrüfatların fəaliyyət istiqamətlərinin

düzgün müəyyən etməsinə, kiçik və orta sahibkarlığın inkişafına dair iqtisadi siyasətin, qəbul edilmiş Strateji Yol Xəritələrinin hədəflərinə nail olmaq, müvafiq Dövlət Proqramlarının məqsədyönlü icrasına xidmət göstərə bilmək imkanı yaradılması ilə səciyyələndirilə bilər. İrəli sürülən təklif və tövsiyyələrdən kiçik və orta sahibkarlığın inkişaf srtategiyasının əsaslandırılması və reallaşdırılması barədə tədbirlər hazırlanmasında və Dövlət proqramlarının icrası prosesində qarşıya çıxa biləcək təcrübi problemlərin həllində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin nəticələri, irəli sürülən tövsiyə və təkliflər biri xaricdə olmaqla 6 Beynəlxalq və Respublika səviyyəli konfranslarda məruzə olunmuşdur. Dissertasiya aid ümumi 15 elmi əsər çap edilmişdir.

Yerinə yetirilən tədqiqat işləri nəticəsində hazırlanmış tövsiyə və təkliflər konkret olaraq Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən (28.12.2018 tarixli KOB-21/02-7/214 saylı arayış), Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Şəmkir Dövlət Aqrar İnkişaf Məkəzindən (06.12.2018 tarixli 01/476 saylı arayış) və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnnovasiya Mərkəzi,Gəncə Regional Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən (14.12.2018 tarixli 115 saylı arayış) istifadə üçün qəbul edilmiş və onlardan istifadə ediləcəyi bildirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş 134 adda ədəbiyyat siyahısından ibarətdir. Onun mətninin həcmi 147 səhifədir. Ondan başqa 10 səhifədə ədəbiyyat siyahısı və 4 səhifədə 2 əlavə cədvəl verilmişdir. Habelə işdə 22 cədvəl, 1 qrafik və 3 sxem verilmişdir. Burada həm də tədqiq edilən regionun ümumi (SWOT) təhlili öz əksini tapmışdır.

Giriş 9 səhifə(16961 işarə), birinci fəsil 46 səhifə(74987 işarə), ikinci fəsil 43 səhifə(66768 işarə), üçüncü fəsil 41 səhifə(67062 işarə), nəticə 5 səhifə(9744 işarə), ədəbiyyat siyahısı 10 səhifə(15755 işarə), əlavələr 4 səhifədən (4375 işarə) ibarətdir. Dissertasiyanın

həcmi cədvəllər, qrafiklər,əlavələr və ədəbiyyat siyahısı istisna olmaqla 235492 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti,əsas müddəalar,tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti, nəzəri və metodoloji əsasları, istifadə edilən məlumatların mənbələri, işin aprobasiyası şərh olunmuşdur.

İşin I fəsilində **"Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinin nəzəri-metodoloji əsasları"** tədqiq edilmişdir. Burada bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlığın rolu və əhəmiyyəti araşdırılmış,xarici və milli iqtisadçı alimlərin yanaşmaları ümumiləşdrilmışdir.

Klassik siyasi iqtisad nöqteyi-nəzərdən sahibkar müəssisənin mülkiyyətçisi olmaqla, müəyyən kapital və torpaq sahəsinə malikdir, əmtəə və xidmətlərin istehsalı və bölgüsü prosesinin mərkəzində dayanır. Sahibkarlıq fəaliyyətinin nəzəri əsaslarını F.Kene, A.Smit, C. Sey, Y.Şumpeter, F.Xayek, A.Çayanova və digərlərinə aid edirlər. Mənbəyə görə,sahibkar qazanc əldə etmək məqsədilə başqalarının ehtiyacını ödəyə biləcək mallar istehsal etməyə çalışan və bu məqsədlə də istehsal amillərini bir araya gətirməyi bacaran bir şəxsdir. Burada habelə bildirilir ki, "sahibkarın başlıca funksiyaları: riski üzərinə götürmək; mal və xidmət istehsal etmək məqsədi ilə istehsal amillərini bir araya gətirərək insanların ehtiyaclarını ödəməkdir. Sahibkarlıq fəaliyyəti – məhsul istehsalı zamanı bütün növ resurslardan ağıllı və səmərəli istifadə etmək, cəsarətli qərar qəbul etmək, istehsalı artırmaq və ağıllı risk etmək bacarığıdır.

Təcrübə göstərir ki, müxtəlif təşkilati-hüquqi əsaslar üzrə yaradılan və fəaliyyət göstərən sahibkarlıq subyektləri, ilk növbədə, işçilərinin orta illik sayına görə iri, orta və kiçik sahibkarlara bölünürlər. Bəzi elmi ədəbiyyatlarda bir sahibkar tərəfindən idarə edilən kiçik bir insan qrupu və ya müəssisə kiçik sahibkarlar kateqoriyasına aid edildiyi bildirilir. Sahibkarlığın kateqoriyalar üzrə bölünməsinin digər

meyarları aşağıdakılardan ibarətdir: nizamnamə kapitalının ölçüsü, aktivlərin həcmi, dövriyyənin illik həcmi.

KOS, sahibkarlığın elə bir xüsusi formasıdır ki, işçilərinin sayı, kapitalının həcmi və istehsal miqyası çox məhdud şərtlər müqabilində aktiv fəaliyyət göstərir. Kiçik sahibkarlar yerli bazarlarda fəaliyyət göstərir, bu bazarlarda baş verən hər bir dəyişikliklərə və şəraitə tez reaksiya verir, istehlakçılar ilə fəal qarşılıqlı əlaqə qura bilir, istehsalda dərin ixtisaslaşma aparaır, istehsala az kapital qoyurlar. KOS subyektlərinin fəaliyyət şəraitinə tez reaksiya verməsi onu, bir tərəfdən, daha çevik olması və uyğunlaşmasını təmin edirsə də, digər tərəfdən, bazarın vəziyyətindən, xarici sosial-iqtisadi və siyasi şəraitdən asılı olurlar. Kapitalının həcminin azlığı istehsalın əhatə dairəsini daraldır, elmi-texniki nailiyyətlərdən, əlavə maliyyə, istehsal və əmək ehtiyatlarından istifadə etmək imkanlarını məhdudlaşdırır.

Dissertasiyada KOS-un formalaşdırılması və inkişafında maliyyə sisteminin xarakterik xüsusiyyətləri araşdırılır.Maliyyə sisteminin inkişaf etdirilməsi bütövlükdə iqtisadiyatın bütün sahələrinin, KOS subyektlərinin uğurlu fəaliyyəti və stabillik yaradılmasının əsas amillərindən biri hesab edilir.Ümumiyyətlə maliyyə sistemi çoxsaylı qarşılıqlı əlaqələrin öz elementləri arasında vahidliyə malikdir, vahid bir tama aid olan münasibət və əlaqələrin məcmusundan ibarət olur. Qarşılıqlı əlaqədə və asılı olan, habelə bir-birinə təsir göstərən maliyyə münasibətləri vasitəsi ilə pul vəsaiti fondları və pul gəlirləri formalaşdırılır, bölüşdürülür,onlardan istifadə edilir,ictimai istehsalın bütün iştirakçılarının maddi mənafelərinin maliyyələşdirilməsi təmin edilmiş olur.Maliyyə münasibətlərinin bütün növləri və formaları sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Onların hər birinin özünəməxsus pul fondları mövcud olur və səmərəli istifadə olunması əsas məqsədlərdən birinə çevrilir. Müvafiq maliyyə qurumları isə bu münasibətlərin və fondların idarə edilməsini həyata keçirirlər.

Hər bir sahibkar özünün pul (maliyyə) ehtiyatlarına malik olmalıdır. Onun maliyyə ehtiyatlaını formalaşdıran əsas mənbələri: istehsal nəticəsində yaranan mənfəət; sərvətin satışı və icarəyə verilməsindən əldə edilən mənfəət; sığorta yardımları; cəlb edilmiş vəsaitlər. Maliyyə ehtiyatları KOS-un inkişafını,istehsal prosesinin təş-

kili, öhdəliklərinin yerinə yetirilməsi və səmərəli fəaliyyət göstərməsini təmin edən əsas amil hesab edilir. Göstərilən hər bir funksiyanın vaxtında və keyfiyyətlə yerinə yetirilməsi maliyyə vasitələrinə ehtiyac yaradır,pul kütləsinə tələbatı formalaşdırır. Bu da, öz növbəsində, maliyyə sisteminin formalaşmasını zəruri edir və onun səmərəli fəaliyyəti sahibkarın uğurlarının mühüm şərtlərindən biri kimi çıxış edir.

KOS-un inkişaf etdirilməsi ölkənin iqtisadi siyasətinin mərkəzində dayanmışdır. 1999-cu il 4 iyun tarixdən "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Daha sonra Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər) qəbul edilmiş və uyğun olaraq məqsədyönlü tədbirlər həyata keçirilmişdir. 2016-cı ildən"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair  Strateji Yol Xəritəsi"üzrə tədbirləri icra olunur. Ölkə Prezidenti İlaham Əliyev 2017-ci il dekabrın 28-də "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında"fərman imzalamış və ona uyğun olaraq, xüsusi icra qurumu fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritələrində qeyri-neft sektorunun KOS fəaliyyəti əsasında inkişaf etdirilməsi diqqət mərkəzinə çəkilmişdir.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, ölkədə KOS-un inkişafına dair hədəflərə nail olmaq üçün beynəlxalq aləmdə qəbul edilmiş təsnifata əsaslanaraq, düzgün iqtisadi-statistik qiymətləndirmələrin aparılması üçün sahibkarlığın mahiyyətinin nəzəri aspektdə yenidən izahı əhəmiyyətli sayıla bilər.Biz Azərbaycanın kənd təsərrüfatı subyektləri əsasında bunun mahiyyətiniətraflı izah etməyə çalışmışıq. Rəsmi statistik məlumatlara görə ölkədə 2017-ci ildə 792,8 min sahibkarlıq subyektləri fəaliyyət göstərmişdir.Onların 86,5%-i fiziki şəxslərdən və 13,5%-i hüquqi şəxslərdən ibarət olmuşdur. Bütün sahibkarların 196,3 minini (24,5%-i) KOS təbəqəsi təşkil edir. Tədqiqatın obyekti sayılan Gəncə-Qazax iqtisadi rayonunda bu göstəricilər aşğıdakı kimi olmuşdur: 103,8 min sahibkar, 93,1%, 6,9% və

22,4 min sahibkar (21,6%). Rəsmi statistik məlumatlarda Gəncə-Qazax iqtisadi rayonu üzrə KOS-un ümumi sayından 328-i və yaxud 1,4%-i kənd, meşə təsərrüfarı və balıqçılıq təsərrüfatlarına məxsus olmuşdur.

**Cədvəl 1. Kənd təsərrüfatı istehsalçılarının tipoloji qruplaşdırılması və tərkibi, 2015-ci il kənd təsərrüfatı siyahıyaalmasının məlumatları əsasında**

| | Azərbaycan | | | Gəncə-Qazax iqtisadi rayon | | |
|---|---|---|---|---|---|---|
| | Təsərrüfatların sayı, vahid | Onların xüsusi çəkisi, faiz | Orta hesabla bir təsərrüfata düşən yararlı torpaq sahəsi, ha | Təsərrüfatların sayı, vahid | Onların xüsusi çəkisi, faiz | Orta hesabla, bir təsərrüfata düşən yararlı torpaq sahəsi, ha |
| Bütün təsərrüfat tipləri üzrə cəmi | 1352121 | 100 | 1,69 | 223916 | 100 | 1,43 |
| Ailə kəndli və ev təsərrü-fatları, fərdi sahibkarlar | 1350736 | 99,90 | 1,49 | 223717 | 99,91 | 1,26 |
| Ailə kəndli təsərrüfatları | 916340 | 67,77 | 2,04 | 166305 | 74,27 | 1,58 |
| Ev təsərrüfatları | 431106 | 31,88 | 0,14 | 57166 | 25,53 | 0,17 |
| Fərdi sahibkarlar | 3290 | 0,24 | 22,91 | 246 | 0,11 | 33,92 |
| Müəssisə və təşkilatların cəmi | 1385 | 0,10 | 202,77 | 199 | 0,09 | 189,20 |
| Dövlət müəssisələri | 223 | 0,02 | 523,34 | 32 | 0,01 | 385,38 |
| Kollektiv (birgə) təsərrüfatlar | 385 | 0,03 | 64,76 | 22 | 0,01 | 30,00 |
| Açıq və qapalı səhmdar cəmiyyətləri | 59 | 0,00 | 68,42 | 6 | 0,00 | 83,83 |
| Məhdud və əlavə məsu-liyyətli cəmiyyətlər | 428 | 0,03 | 201,21 | 61 | 0,03 | 120,82 |
| İstehsal kooperativləri | 58 | 0,00 | 68,00 | 8 | 0,00 | 114,25 |
| Digər təsərrüfatlar | 232 | 0,02 | 194,40 | 70 | 0,03 | 226,71 |

Fikrimizcə, cədvəldə verilmiş kənd təsərrüfatı istehsalçılarının hamısı sahibkarlıq subyektləri hesab edilirlər. Onların da əksəriyyəti KOS subyektləridir. Əvvəla,onların hər biri, mülkiyyət münasibətləri

və istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahələrinin həcmindən asılı olmayaraq, müəyyən növ məhsul istehsalı və xidmətlərin göstərilməsi ilə məşğul olurlar. İkincisi, onların fəaliyyətinin əsası azad seçim etmək, öhdəliklər götürmək, bu öhdəlikləri özünün məsuliyyəti altında yerinə yetirmək, gəlir, mənfəət və fayda əldə etməklə səciyyələndirilir.




**Qrafik 1. Bəzi olkələr üzrə kiçik və orta sahibkarlq subyektlərinin əsas göstəriciləri.**

mənbə:www.stat.gov.az və müəllif hesablamaları

Dissertasiyada statistik məlumatların təhlili aparılmış,inkişaf qanunauyğunluqları öyrənilmiş mövcud nöqsanlar üzə çıxarılmış və onların aradan qaldırılmasına dair konkret təkliflər irəli sürülmüşdür.

Tədqiqatın II fəsili **“Aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinin müasir vəziyyəti”**nin öyrənilməsinə yönəldilmişdir. Burada Gəncə-Qazax iqtisadi rayonunda aqrar sahibkarlığın inkişafının sahəvi quruluşu tədqiq edilmişdir. Tədqiqat nəticəsində məlum olmuşdur ki, ölkə əhalisi və yararlı torpaq ehtiyatlarının 16,8%-i Gəncə-Qazax iqtisadi rayonların ərazisindədir. Bu regionun kənd təsərrüfatına yararlı torpaq sahələrinin hər 100 hektarı təxminən 157 nəfərin ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın ödənilməsinə xidmət göstərir. Mövcud torpaq ehtiyatlarından sə-

mərəli istifadə edilməsində onun keyfiyyət əlamətlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Təhlil əsasında demək olur ki, ümumiyyətlə, ölkə üzrə mövcud olan torpaq ehtiyatlarında biçənək və otlaq sahələri üstünlük təşkil etdiyi kimi (58,9%), tədqiq olunan bölgədə bu göstərici daha yüksəkdir: Gəncə-Qazax iqtisadi rayonunda 74,2% yararlı torpaq sahələri biçənək və otlaqlardan ibarətdir. Deməli, göstərilən regionlarda heyvandarlığın inkişaf etdirilməsi imkanları daha genişdir.

İqtisadi rayonunun kənd təsərrüfatına yararlı torpaq sahələrinin 25,1%-ni əkinə yararlı sahələr təşkil edir. Onun 77,9%-i suvarılan sahələrdən ibarətdir. Verilmiş məlumatlar bölgənin kənd təsərrüfatında əkinçiliyin inkişaf xüsusiyyətlərini müəyyən etməyə əsas yaradır: təsərrüfatlarında, ölkə üzrə orta səviyyə ilə müqayisədə, əkinə yararlı sahələr məhduddur və suvarma əkinçiliyi geniş yayılmışdir.

Ölkənin kənd təsərrüfatı istehsalçılarının 16,6%-i Gəncə-Qazax iqtisadi rayonda yerləşir. Onların hər biri 7 nəfər yerli əhalinin tələbatının ödənilməsi imkanına malikdirlər, 2,6 nəfər potensial əmək ehtiyatı mövcuddur, 4,4 ha yararlı torpaq sahəsindən və 1,1 ha əkin sahəsindən istifadə etməklə kiçik sahibkarlıq subyektləri hesab edilirlər. Bu təsərrüfatların 84%-ə qədəri ailə kəndli təsərrüfatlarından ibarət olmaqla, əsasən əmtəəlik məhsul istehsalı ilə məşğul olurlar. Özlərinin tələbatının ödənilməsi ilə yanaşı, regionun daxili istehlak bazarının, Gəncə və Naftalan şəhərlərinin əhalisinin tələbatının ödənilməsində fəal iştirakçı olmaq,keyfiyyətli məhsullar təklif etmək, habelə ətraf bölgələrin, Bakı şəhərinin istehlak bazarlarına müəyyən növ məhsulların təklif etmək imkanları genişdir. Bu region həm də ölkənin ixracat potensialını genişləndirmək,qonşu respublikalarla idxal-ixrac əlaqələrinin səmərəli təşkili imkanlarına malikdir.

Tədqiq olunan regionda heyvandarlıq təsərrüfatlarının iqtisadi mexanizmi çox rəngarəngdir. Məhsuldar mal-qara və quşlar, arı ailələri, işçi heyvanlar, dəvə və ev dovşanlarının bəslənməsi ilə məşğul olurlar. Hər 100 ha kənd təsərrüfatına yararlı sahəyə düşən iri buynuzlu malın baş sayı, ölkə üzrə orta göstərici ilə müqayisədə,xeyli aşağıdır.




**Qrafik 2. Gəncə-Qazax iqtisadi rayonunda kəndli sahibkarların inkişaf etdirilmə xüsusiyyətləri, 2019 il məlumatları üzrə xüsusi çəkisi,faizlə**

mənbə:www.stat.gov.az və müəllif hesablamaları

Dissertasiyada xarici ölkələrin təcrübəsində maliyyələşdirmə sistemində geniş yer tutmuş mütərəqqi maliyyə: faktorinq, forfeytinq, françayzinq xidmətlərinin mahiyyəti şərh edilir,ölkəmizdə KOS təbəqələrinə tətbiqinin yolları araşdırılır, müsbət və mənfi nəticələrinə diqqət yönəldilir.Habelə ölkəmizdə maliyyələşdirmə mənbəyi kimi lizinq xidmətlərinin təkmilləşdirilməsi,maliyyə imkanlarının möhkəmləndirilməsində müstəsna əhəmiyyət kəsb etdiyi əsaslandırılır. Tədqiqat öbyektinin subyektlərinin kreditlərdən istifadə etmək imkanları araşdırılır, onlardan istifadə etmə səviyyəsi qiymətləndirilir, kreditlərdən səmərəli istifadə etmək yolları müəyyənləşdirilir və müəyyən təkliflər irəli sürülür.

KOS-un maliyyələşdirmə vəziyyəti qiymətləndirilir və aşağıdakılar müəyyən edilir:

- ölkə üzrə və təhlil edilən regionda kənd təsərrüfatı istehsalçılarının böyük əksəriyyəti KOS subyektlərindən ibarət olduğuna görə, texniki təchizatı çox aşağıdır. Bu da iki əsas səbəbdən irəli gəlir: baha qiymətə texnika almaq kiçik və orta sahibkarlar üçün əlverişli de-

yil və səmərəli istifadə olunmur;maliyyə imkanları zəifdir və onların alınması əlçatmazdır;

- əsasən iri sahibkarlıq subyektləri kənd təsərrüfatı texnikası almağa meyllidir və maliyyə imkanına malikdir;

- kənd təsərrüfatında məhsul istehsal proseslərinin icrasında əl əməyi üstünlük təşkil edir. Bu da əkin sahəsi və bağlarını, habelə mal-qaranın məhsuldarlığı, əmək məhsuldarlığını artırmağa imkan vermir, ehtiyatlardan istifadənin səmərəliliyini yüksəltmək mümkün olmur, istehlak bazarına tələbata uyğun təklif formalaşdırılmır. Göstərilənlərin hamısı son nəticədə maliyyə imkanlarını məhdudlaşdırır;

- KOS-larda məhsul istehsalı proseslərini mexanikləşdirmək məqsədilə ixtisaslaşdırılmış texniki xidmət subyektlərinin, kiçik və orta sahibkarlar formasında yaradılması, onların kənd təsərrüfatı istehsalçıları ilə iqtisadi metodlar üzrə qarşılıqlı əlaqələrin qurulması əhəmiyyətli sayılır.

Büdcədən ödənilən güzəştli kreditlərin 22,3 faizi Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatları almışlar. Məlumatlar deməyə əsas verir ki, tədqiq edilən regionun təsərrüfatlarına əvvəlki illərdə ödənilən güzəştli kreditlərin xüsusi çəkisu xeyli yüksək olsa da, son üç ildə tədricən azalmış və son üç ildə ölkə üzrə büdcə vəsaiti hesabına ödənilən güzəştli kreditlərin xüsusi çəkisi 5-6%-ə düşmüşdür.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, xarici ölkələrin təcrübəsində vençur kapitalından istifadə edilir. Belə nəticəyə gəlinmişdir ki, Avropa məkanında özünə geniş yer tutmuş vençur kapital elə ortaqlıq şərtilə, mənfəətin nəticəsinə görə pay alınan (əvvəlcədən müəyyənləşdirilən faiz ödənilməyən) kredit formasıdır və onun Azərbaycanın kənd təsərrüfatında tətbiqi çox əhəmiyyətli ola bilər. Bunu kooperasiya sisteminin yaradılmasının prinsiplərinə daxil etmək, müvafiq bank qurumlarının istehsal və ya istehlak kooperativlərinə “assosiativ üzv” statusla daxil olması yolu ilə təmin etmək mümkün sayırıq. Faktorinq, forfeytinq, françayzinq üsullarla maliyyələşmə ilə müqayisədə, təklif olunan üsul KOS subyektləri üçün daha əlverişli sayılır, çünki əlavə ödəniş etməyə ehtiyac yaranmır, göstərilən xidmətlərin haqqı mənfəətdən pay hesabına ödənilir.

## Cədvəl 2. Gəncə-Qazax iqtisadi rayonunun seçilmiş təsərrüfatlar üzrə əsas iqtisadi göstəricilər və səmərəlilik göstəricilərinin vəziyyəti, 2018-ci ildə

| | Kiçik sahibkarlar üzrə | | | | Kiçik sahibkarların cəmi | Orta sahibkarlar (Şəmkir) | Şəmkir cəmi, kiçik və orta sahibkarların cəmi | Sorğu aparılmış təsərrüfatların cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| | Daşkəsən | Göygöl | Samux | Şəmkir | | | | |
| Sorğu aparılmış təsərrüfat-ların sayı, ədəd | 7 | 4 | 4 | 5 | 20 | 4 | 9 | 24 |
| Orta hesabla bir təsərrüfata düşən işçilərin sayı, nəfər | 6,4 | 6 | 5,8 | 10 | 7,1 | 31,3 | 19,4 | 11,1 |
| I. 2018-ci lidə istehsalın nəticələrinə görə formalaşan maliyyə ehtiyatlarını səciyyələndirən əsas göstəricilərin qiyməti | | | | | | | | |
| İstehsal edilmiş məhsulların dəyəri min manat | 287,1 | 189,8 | 299,8 | 350,4 | 1127,1 | 2655,2 | 3005,6 | 3782,3 |
| Orta hesabla bir təsərrüfatın illik dövriyyəsinin həcmi, min manat | 41,0 | 47,5 | 75,0 | 70,1 | 56,4 | 663,8 | 334,0 | 157,6 |
| İstehsal xərcləri, min manat | 86,8 | 47,5 | 83,3 | 99,4 | 317 | 625,8 | 725,2 | 942,8 |
| İstehsal xərclərinin xüsusi çəkisi, % | 30,2 | 25 | 27,8 | 28,4 | 28,1 | 23,6 | 24,1 | 24,9 |
| Əlavə dəyər, min manat | 200,3 | 142,3 | 216,5 | 251,0 | 810,1 | 2029,4 | 2280,4 | 2839,5 |
| Əlavə dəyərin xüsusi çəkisi,% | 69,8 | 75 | 72,2 | 71,6 | 71,9 | 76,4 | 75,9 | 75,1 |
| II. Səmərəliliyi səciyyələndirən göstəricilərin vəziyyəti: | | | | | | | | |
| Orta hesabla bir nəfər işçiyə düşən dövriyyə, manat | 6380 | 7908 | 13035 | 7008 | 7937 | 21242 | 17175 | 14166 |
| 1 manat istehsal xərcinə düşən dəyər, manat | 3,31 | 4,00 | 3,60 | 3,53 | 3,56 | 4,24 | 4,14 | 4,01 |
| Əlavə dəyərin istehsal xərclərinə nisbəti, % | 231 | 299 | 261 | 253 | 256 | 324 | 314 | 301 |
| Bir hektar kənd təsərrüfatın yararlı sahəyə düşür, manat: | | | | | | | | |
| istehsal edilmiş məhsulun dəyəri (dövriyyə) | 388 | 295 | 1307 | 1051 | 579 | 16492 | 6073 | 1427 |
| istehsal xərcləri | 117 | 74 | 362 | 298 | 163 | 3887 | 1465 | 344 |
| əlavə dəyər | 271 | 221 | 945 | 753 | 417 | 12605 | 4068 | 1083 |

Mənbə: Tematik sorğu məlumatları və müəllifin özünün tədqiqatının nəticələri

Çətinliklərlə üzləşdiyimizə görə bilavasitə kəndli sahibkarlıq subyektlərindən müvafiq məlumatlar əldə edilməsi məqsədəuyğun sayılmış və tematik müşahidələrin aparılması proqramı hazırlanmış, onun əsasında seçmə üsulla rayonlardan kəndli sahibkarların fəaliyyət nəticələrinin öyrənilməsinə səy göstərilmişdir. Mövcud imkanlardan istifadə edərək,çətinliklə 24 təsərrüfatdan ilkin məlumatlar toplamaq mümkün olmuşdur.

**Cədvəl 3. Gəncə-Qazax iqtisadi rayonunun seçilmiş təsərrüfatlarının maliyyə resurslarının formalaşma xüsusiyyətləri, 2018-ci ildə**

| | Kiçik sahibkarlar üzrə | | | | Kiçik sahibkarların cəmi | Orta sahibkarlar (Şəmkir) | Şəmkir cəmi, kiçik və orta sahibkar-ların cəmi | Sorğu aparılmımış təsərrüfatların cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| | Daşkəsən | Göygöl | Samux | Şəmkir | | | | |
| Məhsul satışından əldə edilən gəlir, min manat | 189,4 | 133 | 200,3 | 332,8 | 855,5 | 2280,7 | 2613,5 | 3136,2 |
| Təsərrüfatda istifadə edilən məhsulların dəyəri, min manat | 12,0 | 0 | 20,6 | 4,0 | 36,6 | 83,2 | 87,2 | 123,7 |
| 2018-ci ildə alınmış kreditlər, min manat: | 47 | 90 | 28,5 | 159 | 324,5 | 201 | 360 | 525,5 |
| 2018-ci ildə maliyyə ehtiyatının potensial imkanı, min manat | 248,4 | 223,0 | 249,4 | 495,8 | 1216,6 | 2564,9 | 3060,7 | 3785,4 |
| Bir təsərrüfata görə, min manat | 35,5 | 55,8 | 62,3 | 99,2 | 60,8 | 641,2 | 340,1 | 157,7 |
| Məhsul satışından əldə edilən gəlirin xüsusi çəkisi,% | 76,2 | 59,6 | 80,3 | 67,1 | 70,3 | 88,9 | 85,4 | 82,8 |
| Kredit hesabına, % | 18,9 | 40,4 | 11,4 | 32,1 | 26,7 | 7,8 | 11,8 | 13,9 |
| Təsərrüfatın daxilndə istifadə-lərin xüsusi çəkisi, % | 4,8 | 0,0 | 8,2 | 0,8 | 3,0 | 3,2 | 2,8 | 3,3 |
| Təsərrüfat hesabına istifadələrin xərclərdəki xüsusi çəkisi,% | 13,8 | - | 24,7 | 4,0 | 11,5 | 13,3 | 12,0 | 13,1 |

Mənbə: Tematik sorğu məlumatları, müəllifin özünün tədqiqatının nəticələri

Beləliklə, tədqiqat nəticəsində məlum olmuşdur ki, sorğu aparılmış təsərrüfatların illik dövriyyəsinin çox hissəsini (56,5%) bitkiçilik məhsullarının istehsalı hesabına əldə edirlər, yalnız 43,5 %-i heyvandarlıqdan əldə edilir. Müvafiq göstəricilər kiçik sahibkarlıq subyektləri üzrə 79,5% və 20,5%-lə, orta sahibkarlıq subyektlərində 66,5% və 33,5%-lə səciyyələndirilir,yəni hər iki kateqoriya təsərrü-

fatlarda illik dövriyyə,gəlirlər və nəhayət,maliyyə ehtiyatlarının formalaşmasında əkinçilik birinci dərəcəli rola malik olmuş və heyvandarlıq məhsulları istehsalı ikinci yerdə dayanmışdır. Coğrafi prinsip üzrə yanaşdıqda isə tamamilə fərqli nəticələr müşahidə edilir. Bu nəticə dissertasiyada geniş şərh edilmişdir.

Tədqiq edilmiş təsərrüfatların əksəriyyəti kredit münasibətlərinin iştirakçıları hesab edilirlər.2016-ci ildə 22 təsərrüfat, hər biri orta hesabla, 16,6 min manat kredit aldığını bildirmişlər.Onlardan Daşkəsən rayonunda 3 təsərrüfat 6% və 2 təsərrüfat 21-27%-lə,Göygöl rayonunda bir təsərrüfat 6% və üç təsərrüfat 22-28%-lə,Samux rayonunda 4 təsərrüfatın və Şəmkir rayonunun 9 təsərrüfatının hamısı 18-25%-lə kredit götürdüklərini bildirmişlər;2017-cı ildə 22 təsərrüfatın hər biri, orta hesabla, 23,6 min manat kredit almış, 2018-ci ildə isə 23 təsərrüfatın hər biri,orta hesabla, 22,8 min manat kredit almışlar. Məlumatlardan göründüyü kimi, kənd təsərrüfatı istehsalçıları güzəştli kredit mexanizmindən çox zəif istifadə edirlər. Təsərrüfatların əksəriyyəti yüksək faizlə kredit götürmək məcburiyyətində olurlar.

Dissertasiyanın III fəsili“**Aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyə təminatının gücləndirilməsi yolları”** adlandırılıb. Burada ilk növbədə,KOS fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi maliyyə imkanlarına təsir edən mühüm bir amil kimi nəzərdən keçirilmişdir. Məsələnin həllinə iki aspektdən yanaşılmışdır: istehsal edilmiş məhsulların satışı və onlardan səmərəli istifadə olunması; istehsal vasitələri alınması üçün əlverişli istehlak bazarının fəaliyyətinin təmin edilməsi.

Rəsmi statistik məlumatların təhlili deməyə əsas verir ki, Gəncə-Qazax iqtisadi rayonunun təsərrüfatları ölkə əhalisinin ərzaq və qeyri-ərzaq məhsullarına, emal sahələrinin xammala olan tələbatın ödənilməsində olduqca əhəmiyyətli rola malikdirlər və mühüm vəzifələr yerinə yetirirlər. Onlar istehlak bazarına aşağıdakı məhsulları təklif edirlər: buğda, arpa, qarğıdalı, paxlalılar,şəkər çuğunduru, günəbaxan, kartof, tərəvəz,bostan məhsulları, müxtəlif növ və çeşiddə meyvə, üzüm,ət süd, yumurta,yun,bal,müxtəlif növ və yaşda diri mal-qara və quşlar.

Məsələn, adambaşına istehsal edilən əsas növ kənd təsərrüfatı məhsullarının faktiki vəziyyəti yuxarıdakı cədvəlin məlumatları ilə səciyyələndirilir. Bu məhsullar istehlakçılarına aşağıdakı üsullarla çatdırılır:

- təsərrüfatlar özlərinin ehtiyaclarının ödənilməsinə: ailə üzvlərinin ərzaq ehtiyaclarının ödənilməsinə və istehsal sahələrinin davam etdirilməsi üçün xammal-materiallara olan tələbatlarının ödənilməsi üçün istifadə edirlər;
- yerli istehlak bazarının (rayondaxili və regiondaxili) tələbatının ödənilməsi məqsədilə təklif edirlər;
- izafi məhsulların xeyli hissəsini regiondankənar (ölkədaxili və beynəlxalq) istehlak bazarının tələbatının ödənilməsində aktiv (fəal) iştirak edirlər, təklif irəli sürürlər (cədvəl 4).

**Cədvəl 4. Adambaşına kənd təsərrüfatı məhsullarının istehsalı, (2019-cu ildə, kq)**

| | Azərbaycan | Gəncə-Qazax | Qazax | Ağstafa | Tovuz | Şəmkir | Gədəbəy | Daşkəsən | Samux | Göygöl | Goranboy | Adambaşına istehlak, kq |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Buğda | 185 | 156 | 310 | 303 | 364 | 125 | 33 | 45 | 260 | 199 | 188 | 173* |
| Arpa | 83 | 60 | 69 | 52 | 13 | 76 | 2 | 4 | 138 | 62 | 319 | |
| Kartof | 93 | 372 | 229 | 178 | 980 | 533 | 1279 | 375 | 28 | 100 | 31 | 72 |
| Tərəvəz | 143 | 245 | 125 | 78 | 178 | 1068 | 44 | 41 | 212 | 85 | 96 | 104,8** |
| Meyvə və giləmeyvə | 97 | 134 | 163 | 152 | 92 | 283 | 266 | 18 | 303 | 32 | 173 | 78,3 |
| Ət istehsalı | 32 | 24 | 32 | 27 | 26 | 29 | 33 | 48 | 54 | 31 | 33 | 32,7 |
| Süd istehsalı | 205 | 235 | 324 | 197 | 193 | 272 | 430 | 675 | 530 | 376 | 360 | 272,4 |
| Yumurta, ədəd | 174 | 98 | 123 | 111 | 113 | 195 | 93 | 117 | 113 | 164 | 105 | 157,6 |

Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/ və müəllif hesablamaları

*) Buğdaya hesablanmış çəkidə; **) Tərəvəz və bostan məhsulları üzrə

Dissertasiya işində istehsal vasitələri, yəni xammal-materiallar alışının mövcud vəziyyəti təhlil edilir, maliyyə imkanlarına təsiri qiymətləndirilir, məhsul satışı və istehlak bazarlarının təkmilləşdirilməsi vacibliyi əsaslandırılır və konkret təkliflər irəli sürülür. Mövcud iqtisadi metodların təsiri,bu amillərin təkmilləşdirilməsinin maliyyə ehtiyatlarının formalaşmasında əsas istiqaməti kimi nəzərdən keçirilir.

Tədqiqat nəticəsində əldə edilən məlumatların təhlili deməyə əsas verir ki, Gəncə-Qazax iqtisadi rayonlarında kənd təsərrüfatı istehsalçılarının iqtisadi münasibətləri qeyri-mütəşəkkildir, təşkilati və idarəetmə məsələlərinin həlli kortəbiiliyi ilə xarakterizə edilir. Kənd təsərrüfatı istehsalçıları məhsul istehsalı, onların satışı, xammal və materialların alınması və onların istehlakında ancaq özləri iştirak edir, bütün riskləri özləri daşıyır və bütün məsələlərin həlli ilə əlaqəli vəzifələrini özlərinin məsuliyyətləri altında icra edirlər. Belə yanaşma, əvvəla, istehsal proseslərinin elmi əsaslar üzrə təşkili və idarə edilməsinə ziddiyyət təşkil edir. İnteqrasiya münasibətləri kortəbii həyata keçirilir və ixtisaslaşmaya lazımi əhəmiyyət verilmir; ikincisi, məhsuldarlıq göstəricilərini artıra bilmirlər, ehtiyatlardan səmərəli istifadə edilmir. İstehlak bazarında bolluq yarada bilmirlər, sosial məsələlərin həllində ləngimələr müşahidə olunur; üçüncüsü, istehsal xərclərini azaltmaq mümkün olmur, maliyyə imkanları məhdudlaşdırılır, onu genişləndirmək və möhkəmləndirmək mümkün olmur, müflisləşmə meyli formalaşır, rəqabətədavamlılıq zəifləyir və s. mənfi təzadlar müşahidə edilir. İşdə tədqiqat zamanı ayrı-ayrı sahibkarlıq subyektlərində yaranmış çətinliklər, mənfi meyllər ətraflı işıqlandırılır və aradan qaldırılması üçün təkliflər verilir.Regionun kənd təssərrüfatının ümümi vəziyyətinə dair SWOT təhlil işlənib hazırlanmış, güclü tərəflər,zəif tərəflər,imkanlar və təhlükələr araşdırlmışdır.

Beləliklə, Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatlarının təqdiqatı və təhlili deməyə əsas verir ki,kəndli sahibkarların məqsədəuyğun inkişaf etdirilməsi məqsədilə bazar münasibətlərinin mütəşəkkilliyini təmin etmək, sahibkarların iqtisadi savadını artırmaq, istehsal olunan məhsullar, onlardan istifadə formaları, istehsal xərcləri, müvafiq iqtisadi hesablamaların aparılması, səmərəlilik göstəricilərinin düzgün hesablanmasını öyrətmək olduqca əhəmiyyətli hesab edilir. Burada müxtəlif xidmət sahələri, o cümlədən, peşə təhsili xidmətləri, iqtisadi biliklərin artırılmasına dair xidmətlərin təşkili olduqca vacib hesab edilir. Eyni zamanda, istehsal, tədarük, təchizat, emal, nəqliyyat, xidmət sahələrini vahid bir qurum kimi özündə birləşdirən, onların əməyindən və istehsal vasitələrindən səmərəli istifadəni təmin

edə bilən kooperasiya sisteminin yaradılması çox mühüm əhəmiyyət kəsb edir. Kooperasiya sisteminin yaradılması, fikrimizcə, regionda kəndli sahibkarların, xüsusən də KOS-un inkişaf etdirilməsinin real imkanı kimi çıxış edir. Kooperasiya sisteminə daxil olan sahibkarların maliyyə imkanlarını möhkəmləndirmək və ondan səmərəli istifadənin təmin edilməsini təmin etmək üçün ən əlverişli idarəetmə forması saymaq olar.

Ölkə Prezidentinin irəli sürdüyü tələblər və qarşıya qoyduğu vəzifələrin icrasını təmin etmək, sahibkarlığın iqtisadi-statistik qiymətləndirilməsini tələb olunan səviyyədə təkmilləşdirmək, KOS təbəqəsinin məqsədyönlü inkişafına nail olmaq üçün regionlarda peşəkar xidmət sahələrinin, o cümlədən, uçot və hesabatın təşkili subyektlərinin yaradılması, onların kooperasiya prinsipləri üzrə qarşılıqlı əlaqələrinin təşkili (inteqrasiyası), istifadə edilən iqtisadi metodları (qiymət və xərclər konsepsiyaları,əlavə dəyər vergisinin tətbiqi təcrübəsi, istehlak bazarının təşkili məsələlərini) təkmilləşdirmək, sahibkarlara fəaliyyət nəticələrinin uçotunu tələb olunan səviyyədə təşkili üzrə xidmətləri gücləndirmək və təkmilləşdirmək həllini gözləyən mühüm əhəmiyyətli tədbirlərə aid edilir.

## ƏSAS NƏTİCƏLƏR

1. Kiçik, orta və iri sahibkarlıq subyektlərinin hər birinin maliyyə münasibətlərinin ümumi və fərdi xüsusiyyətləri mövcuddur, Ümumi xüsusiyyətlərə, maliyyə münasibətlərinin əsas istiqamətlərinə daxil edilir: məhsul satışı, xidmətlər göstərilməsi, istehsal vasitələri alışı ilə əlaqəli formalaşan maliyyə münasibətləri; kredit bazarı, sığorta bazarı vasitəsilə, vergi siyasətindən yaranan maliyyə münasibətləri; fərdi (spesifik) maliyyə xüsusiyyətlərinə aid edilir: iri sahibkarlıq subyektlərində - qiymətli kağızlar və səhmlərin dövriyyəsi ilə formalaşan maliyyə münasibətləri, kiçik və orta sahibkarlıq subyektləri üçün – dövlət yardımları və güzəştlər, ev təsərrüfatlarının, əhalinin və ailə büdcəsininin maliyyə münasibətləri,

2. Sahibkarlıq sferasının istehsal həcminə görə qruplaşdırmanın əsas əlamətləri: işçilərin orta illik sayı, fəaliyyəti üzrə illik dövriyyənin həcmi (dəyəri), Azərbaycanda bu meyarlar mikro sahibkar-

lar üçün, müvafiq olaraq, işçi sayı 10 nəfərə kimi və illik gəlir 200 min manatdan az, kiçik sahibkarlar üçün işçi sayı 11-50 nəfər və illik gəlir 200-3.000 min manat, orta sahibkarlar üçün işçi sayı 51-250 nəfərdən və illik gəlir 3.000-30.000 min manatdan,İri sahibkarlar üçün işçi sayı 251 nəfətdən çox və illik gəlir 30.000 min manatdan cox olan subyektlər qəbul edilib. Hesab edirik ki, kənd təsərrüfatında məqsədyönlü tədqiqatlar apararkən və təhlil işləri zamanı fərqli yanaşmalardan istifadə etmək olar.Burada,istifadə edilən kənd təsərrüfatına yararlı torpaq sahəsi, təsərrüfatlarda olan mal-qara və ev quşlarının sayından istifadə etmək olar.Kiçik sahibkarlıq subyektləri üçün kənd təsərrüfatına yararlı torpaq sahəsi 50 hektara kimi, iri buynuzlu heyvanların sayı 50 başa kimi, xırdabuynuzlu heyvanların sayı 100 başadək, ev quşların sayı 1000 başadək xarakterik sayıla bilər; orta sahibkarlar üçün bu meyarlar, müvafiq olaraq torpaq sahəsi 50-99 ha, 50-99 baş iri buynuzlu heyvanlar, 100-500 başa qədər xırdabuynuzlu heyvanlar və 1000-10000 başa qədər ev quşu; iri sahibkarlarıqda isə kənd təsərrüfatına yararlı torpaq sahəsi 100 hektar və daha çox, iri buynuzlu heynanların sayı 100 baş və daha çox, xırdabuynuzlu heyvanlar 500 başdan çox, ev quşların sayı 10000 başdan çox olması mümkün hesab edilə bilər.

3. Mütəxəssislər KOS-ların maliyyə imkanlarının xarici təcrübəyə uyğun: faktorinq, forfeytinq, françayzinq münasibətlərinin tətbiq etmək, veksel qiymətli kağızından istifadə və lizinq münasibətlərini təkmilləşdirməklə şərtləndirsələr də, biz kooperasiya sistemini yaratmağı, yuxarıda göstərilən maliyyələşdirmə üsullarının xidmətlərinin götərilməsini istehlak kooperativlərinin xidmətlərini təşkil etmək yolu ilə mümkünlüyünü bildirir.Ölkədə KOS-ların inkişafını, o cümlədən, kənd təsərrüfatının məqsədəuyğun inkişafın, nəzərdə tutulan bütün hədəflərə nail olmağın real və ən səmərəli üsul olduğunu düşünürük. Kooperasiya münasibətləri şəraitində həm də ölkədə həyata keçirilən və təkmilləşdirilməsi zəruri sayılan lizinq xidmətlərinin məqsədəuyğun inkişaf etdirilməsi üçün əlverişli imkan yarana bilər.

4. Kooperasiya sisteminin fəaliyyətini, onun istehlak kooperasiyasının xidmətlərini faktorinq, forfeytinq və françayzinq xidmətlər

münasibəti vasitəsilə göstərilən xidmətlərdən yaxşı təşkil etmək mümkündür və bu daha səmərəli sayılır, əlavə xərc tələb edilmir, əlavə vaxt sərf olunmur, mənfəət bütün üzvlər arasında proporsional bölünür və s, üstünlüklərə malikdir.

5. Ölkədə sahibkarlığın mahiyyətinə natamam yanaşılır, onun qanunvericilik bazasının təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Xüsusən də kəndli sahibkarlığın müəyyənləşdirilməsinə düzgün yanaşılmır. Nəticədə bütün sahibkarların, o cümlədən, KOS-un fəaliyyət nəticələri düzgün qiymətləndirilmir,natamam və keyfiyyətsiz statistik məlumatların hazırlanmasının əsas səbəblərindən hesab edilir, keyfiyyətli təhlil aparmaq, inkişaf qanunauyğunluqlarını öyrənmək və səmərəli siyasətin hazırlanması mümkün olmur.

6. Ölkədə sahibkarlığın bütün növlərinin və xüsusən də onun kiçik və orta təbəqəsinin inkişafına dövlət dəstəyi hüquqi bazasının mükəmməlliyinə və geniş fəaliyyət şəbəkəsinin yaradılmasına baxmayaraq, kəndli sahibkarların kredit ala bilmək imkanları qeyri-qənaətbəxşdir və çox məhduddur. Onların əksəriyyəti kredit bazarından istifadə edə bilmir, əlçatanlığı çox zəifdir. Bu da kredit bazarının təşkilinin qeyri səmərəliliyindən və təkmilləşdirməyə zərurətin mövcudluğundan xəbər verir.

7. Müvafiq tədqiqat işlərini həyata keçirmək üçün təsərrüfatların seçilməsi sabit və ya rotasiya olunmuş qaydada kənd təsərrüfatı siyahıyaalınmasının məlumatlarına əsasən aparılması mümkün hesab edilir. Ona görə də kənd təsərrüfatı siyahıyaalmalarının, Avropa ölkələrində olduğu kimi, hər beş ildən bir keçirilməsi mümkünlüyünü nəzərdən keçirmək təklif edilir,

8. Həm ölkə üzrə bütövlükdə və həm də Gəncə-Qazax iqtisadi rayonunda kəndli sahibkarların təsərrüfat fəaliyyətinin iqtisadi-statistik qiymətləndirilməsi qeyri- qənaətbəxş sayılır, Onun səbəbi zəruri statistik məlumatların natamam və keyfiyyətsiz hazırlanmasından ibarətdir. Bu da əsas iqtisadi göstəricilərin və səmərəlilik səviyyəsinin hesablanması, ixtisaslaşmanın müəyyən edilməsini reallaşdırmağa, maliyyə imkanlarını və reallaşdırılmaq mənbələrini müəyyənləşdirməyə imkan vermir. Bu baxımdan sahibkarların fəaliyyətinin iqtisadi-statistik qiymətləndirilməsini təkmilləşdirmək və tələb olunan

səviyyədə təmin etmək üçün lokal tədqiqat şəbəkəsinin yaradılması, tədqiqat proqramının hazırlanması və istifadəçilərlə razılaşdırılması, metodoloji qaydaların işlənməsi, icmal statistik məlumatların hazırlanması, məsələlərin təşkilati-idarəetmə işlərinin yerinə yetirilməsi məqsədəuyğun sayılır,

9. Tədqiq edilən təsərrüfatlar 2018-ci ildə maliyyə ehtiyatlarının 82,8%-i məhsullarının satışından 13,9%-i kredit bazarı hesabına, 3,3%-i isə öz ehtiyatlarından istifadə etmək hesabına formalaşdırmışdır, sığorta bazarının yardımlarından istifadə etməmişlər.Sığorta bazarının xidmətləri qeyri-qənaətbəxş olduğu üçün burada səmərəli tədbirlər hazırlanmalı və həyata keçirilməlidir.

10. Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatları kortəbii bazar münasibətləri şəraitində fəaliyyət göstərirlər.Nəticədə məhsul istehsalının həcmini artırmaq, istehsal xərclərini azaltmaq, maliyyə imkanlarını möhkəmləndirmək zərbə altına düşür, məsədəuyğun inkiafı təmin etmək və hədəflərə nail olmaq mümkün olmur.Ona görə də hər bir təsərrüfat subyektinin, bazarın tədqiqi və marketinqin təşkili məsələləri iqtisadi inkişafın əsas istiqamətlərindən biri kimi nəzərdə tutulmalıdır.

11. Gəncə-Qazax iqtisadi rayonlarında kənd təsərrüfatı istehsalçılarında istifadə edilən iqtisadi metodlar: istehsal edilən məhsulların uçotu, onlardan istifadə edilməsi, istehsal xərcləri, məhsulların satış qiymətlənin müəyyənləşdirilməsi müasir tələblərə uyğun gəlmir, təsərrüfatlarda uçot-hesabat işləri aparılmır və onların fəaliyyət nəticələrinin iqtisadi-statistik qiymətləndirilməsində çətinliklər yaranır. Təsərrüfat başçılarının və mütəxəssislərin iqtisadi biliyi zəifdir. Göstərilən amillər maliyyə imkanlarının zəifləməsinə təsir göstərir. Regionlarda kiçik və orta sahibkarların iqtisadi biliyinin formalaşdırılması və təkmilləşdirilməsi üçün faydalı məsləhətlərin təşkili və peşə hazırlığı kurslarının keçirilməsi problemin həlli yollarından hesab edilir.

12. Müasir dövrün çox mürəkkəb iqtisadi münasibətlərinin təsnifləşdirilməsinin əsasını BMT-nin Statistika Komissiyası tərəfindən tövsiyə edilmiş fəaliyyət növlərinin təsnifatı təşkil edir, Bu mənbəyə və beynəlxalq təcrübəyə əsaslanaraq, sahibkarlıq subyektlərinin təs-

nifləşdirilməsi əlamətlərinə daxil edilir: mülkiyyət formaları – fərdi, qrup və ictimai dövlət mülkiyyəti; istehsalın həcmi – kiçik, orta və iri sahibkarlıq formaları; iqtisadiyyat sektorları – qeyri-maliyyə müəssisələri, maliyyə təşkilatları, ümumi dövlət idarəetmə sektoru, ev təsərrüfatları, ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları; fəaliyyət növləri – 21 sahə, 88 bölmə, 261 qrup, 575 sinif, 1342 kateqoriya üzrə təxminən 3147 növ üzrə məhsul istehsal edir və xidmətlər göstərirlər,

13. Bütün iqtisadiyyat sahələrində kiçik, orta və iri sahibkarlıq subyektləri (hüquqi və fiziki şəxslər) fəaliyyət göstərirlər, Kiçik və orta sahibkarlıq təbəqəsi bütövlükdə sahibkarlıq fəaliyyətinin "onurğa" sütunu, onun səmərəli inkişafının təkanverici qüvvəsi sayılır. Sosial məsələlərin səmərəli həlli, iqtisadi ehtiyatlardan səmərəli istifadəni təmin edə bilən real iqtisadi münasibətləri həyata keçirən təsərrüfat subyektləridir.İqtisadi rayonda sahibkarlığın güclü və zəif tərəflərinin SWOT təhlili nəticələri maliyyə təminatının yaxşılaşdırılması üçün ciddi tədbirlər görməyi qarşıya məqsəd qoyur.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. "Qlobal iqtisadi böhran şəraitində kiçik və orta sahibkarlığın (KOS) davamlı inkişafının təmin edilməsi yolları", məqalə, 0,5 ş.ç.v., Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Qlobal iqtisadi böhran şəraitində Azərbaycanın davamlı inkişafının təmin edilməsi" mövzusu üzrə Respublika Elmi-Praktik Konfransın materialları,20 mart 2016.

2. "Kiçik və orta sahibkarlığın təşkilinin nəzəri məsələlərinə dair" tezis,0,1 ş.ç.v, AMEA-nın müxbir üzvü,i.e.d, professor Akif Musayevin anadan olmasının 70,elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunmuş "Strateji İqtisadi İslahatlar:Qabaqlayıcı Vergi Siyasəti"Beynəlxalq elmi-praktik konfransın materialları Bakı,12 oktyabr 2017.

3. "Kiçik və orta sahibkarların istehsal ehtiyatlarından istifadənin səmərəliliyi və maliyyə imkanlarına təsiri" Azərbaycan Respublikasi İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnsti-

tutunun “Azərbaycanda iqtisadi islahatlarin həyata keçirilməsi xüsusiyyətləri və problemləri” adlı elmi əsərlər toplusu, məqalə, 1 ş.ç.v., xüsusi buraxılış, Bakı, 2017-ci il.

3. “Azad bazar iqtisadiyyatı şəraitində sahibkarlığın təşəkkülü və sosial yönümlü milli iqtisadi inkişaf ulu öndər H. Əliyevin göstərdiyi yoldur”, tezislər, 0,2 ş.ç.v., Azərbaycan Respublikasi Təhsil Nazirliyi, Bakı Slavyan Universitetinin Ümummili lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” adlı IX Beynəlxalq elmi konfransın materialları, 3-4 may 2018.

4. ”Azərbaycanda sahibkarlığın informasiya təminatı” tezislər,0,1 ş.ç.v. həcmində, Azərbaycan Respublikasi Təhsil Nazirliyi, Bakı Dövlət Universitetinin, Ümummili lider Heydər Əliyevin anadan olmasının 95-ci illik yubileyinə həsr olunmuş”Kitabxana-İnformasiya fəaliyyətində innovasiyalar və fənlərarası inteqrasiya” mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 4 may 2018.

7. “Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatlarının istehlak bazarına təklif imkanları və münasibət formaları”, məqalə, 1 ş.ç.v., ADAU-nun Elmi Əsərləri, Gəncə, 2018, №4.

8. “Ümumi (SWOT) təhlil iqtisadiyyatın strateji planlaşdırılmasında vacib istiqamət kimi”, məqalə, 2 ş.ç.v, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun “Dirçəliş – XXI əsr” jurnalı, № 186/2018;

9. “Особенности отраслевого подхода к развитию малого и среднего предпринимательства” економічний вісник,запорізької державноï інженерноï академії,украïни,запоріжжя, 2018№ 5 (17)

10. “Kiçik və orta sahibkarlığın maliyyə münasibətlərinin xarakterik xüsusiyyətləri”, məqalə, 1,0 ş.ç.v., Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnalı, №5, 2018;

11. “Kiçik və orta sahibkarlığın inkişafının mövcud vəziyyəti və təkmilləşdirilmə yolları” adlı məqalə, 1 ş.ç.v., AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2018 (noyabr-dekabr).

12. ”Regionlarda sahibkarlığın informasiya təminatında elektron resursların rolu” tezislər,0,1 ş.ç.v. həcmində, Azərbaycan Res-

publikasi Təhsil Nazirliyi, Bakı Dövlət Universitetinin, Ümummili lider Heydər Əliyevin anadan olmasının 96-ci illiyinə həsr olunmuş”Kitabxana-İnformasiya və nəşriyyat fəaliyyətində innovasiyalar və fənlərarası inteqrasiya”mövzusunda respublika elmi konfransın materialları, Bakı,7 may 2019.

13. “Gəncə-Qazax iqtisadi rayonunda aqrar sahibkarlığın inkişafının xarakterik xüsusiyyətləri”, məqalə, 1,0 ş.ç.v., Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnalı, №1, 2019;

14. “Aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyə resursları ilə təminatı“ məqalə, 1,0 ş.ç.v., Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin “Kənd Təsərrüfatının İqtisadiyyatı“ elmi-praktiki jurnalı, № 3(33), 2020;

15. “Проблемы цифровой экономики малого и среднего предпринимательства в Азербайджанской Республике” Конференції статей, Міністерство освіти і науки України, Дніпровський національний університет імені Олеся Гончара,II Міжнародної наукової конференції ОСВІТА І НАУКА У МІНЛИВОМУ СВІТІ: проблеми та перспективи розвитку, Дніпро, 27-28 березня 2020 р.

Dissertasiyanın müdafiəsi **18 noyabr 2021-ci il** tarixində saat **14:00** Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat **18 oktyabr 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.10.2021
Kağızın formatı: (60x84) 1/ 16
Həcm: 43347
Tiraj: 100